Oğlun atasına verdiyi suallar-2

2-ci Hissə

(1-ci hissə burada)

Ata qonşularından birinin can üstə olması xəbərini eşidir. Oğlunu da özü ilə götürərək onlara gəlir.

Xəstənin yaxınlarından biri artıq onları qabaqlayaraq özünü xəstəyə yetirmiş , ona "lə iləhə illəllah" kəliməsini təlqin edirdi. Bir müddət sonra qonşu ruhunu öz Rəbbinə tapşırır. Həmin adam onun gözlərini bağlayaraq deyir:
- Həqiqətən Allaha aidik və ona da qayıdacağıq. Allahummə, mənim başıma gələn bəlanın, müsibətin qarşılığın ver və mənə ondan daha xeyirlisini ehsan et!

Beləliklə, onlar meyidi yuyaraq, ona namaz qılmaq üçün məscidə, sonra da dəfnə yollanırlar. Yolda ata oğlun ona tərəf baxdığını görür. Başa düşür ki, o, adəti üzrə yenə sual vermək istəyir.
Ona deyir: Sənin gözlərindən nə istədiyini anladım, sən ölmüş qonşumuzun qohumunun gördüyü işlər barədə soruşmaq istəyirsən, elə deyilmi?

Oğul: Bəli- deyir.
Ata: Oğlum, təlqinə gəlincə onu deyim ki, Əbu Səid əl-Xudri (radıyAllahu anhu) Allah elçisinin (sallAllahu aleyhi və səlləm) "Ölülərinizə "lə iləhə illəllah" kəlməsini təlqin edin!" deməsini rəvayət etmişdir. (Muslim)

Gözlərin örtülməsinə gəlincə isə Ummu Sələmənin buna dəlil olaraq aşağıdakıları deməsi rəvayət olunmuşdur:
- Rasulullah (sallAllahu aleyhi və səlləm) Əbu Sələmənin yanına gəldiyində onun gözləri bərəlmişdi. O, Əbu Sələmənin gözlərini bağladı və dedi: "Ruh bədəni tərk edərkən gözlər onu izləyir".
Onun ailə üzvləri səs-küy etdilər. O isə bunları söylədi: "Özünüz üçün yalnız və yalnız xeyir-dua edin (bəd-dua etməyin). Həqiqətən mələklər sizin dediklərinizə amin deyir."
Sonra isə buyurdu: "Allahummə, Əbu Sələmənin günahlarını bağışla, ona məğfirət elə, dərəcəsini haqq yol göstərilmişlər arasında yüksəlt,, nəslinə xeyir-bərəkət ver. Ey aləmlərin Rəbbi! Bizləri və onu bağışla, qəbrini onun üçün geniş və nurlu et!" (Muslim)

"Həqiqətən Allaha aidik və Ona da qayıdacağıq." - deməsinə gəldikdə isə, Ummu Sələmə (radıyallahu anhə) Peyğəmbərdən (sallAllahu aleyhi və səlləm) eşitdiklərini belə rəvayət edir:
-Elə bir insan yoxdur ki, müsibətə, bəlaya düçar olduğu zaman "Həqiqətən Allaha aidik və ona da qayıdacağıq. Allahummə, mənim başıma gələn bəlanın, müsibətin qarşılığın ver və mənə ondan daha xeyirlisini ehsan et!" -desin, Allah da (subhənəhu və təalə) onun başına gələn müsibətin qarşılığını verməsin və ona ondan daha xeyirlisini ehsan etməsin.
Ummu Sələmə (radıyAllahu anhu) sözünə davam edərək buyurur:
- Əbu Sələmə vəfat etdiyi zaman, Rasulullahın (sallAllahu aleyhi və səlləm) dediyi kimi etdim, Allah da mənə, ondan daha xeyirlisini- Rasulullahı (sallAllahu aleyhi və səlləm) ehsan etdi. (Muslim)

Oğul: Atacan, biz (qadın) qonşumuzu, onun qızını və eləcə də anamı özümüzlə qəbiristanlığa apara bilərikmi?
Ata: Xeyr, olmaz! Möminlərin əmiri Əli ibn Əbu Talib (radıyAllahu anhu) rəvayət edir ki, Rasulullah (SallAllahu aleyhi və səlləm) dəfn mərasiminə gəldiyi zaman görür ki, bir qrup qadın cənazəni gözləyir. Peyğəmbər (sallAllahu aleyhi və səlləm) onlardan soruşur:

-Yuyacaqsınız?
Qadınlar: - Xeyr! -deyə cavab verirlər.
-Cənazəni qəbristanlığa götürəcəksiniz?
Qadınlar: - Xeyr! -deyə cavab verirlər.
-Onu dəfn edəcəksiniz?
Qadınlar: - Xeyr! -deyə cavab verirlər.

Peyğəmbər (sallAllahu aleyhi və səlləm) buyurdu:
- Elə isə savaba, əcrə nail olmadan, (üzürlü) günahkar halda geri dönün.

(İbn ul-Cəuzi hədisin yaxşı sənədli olduğunu söyləmişdir)

İstifadə etdiyim müəlliflər:
İmam AbdulBəsıt Hilli
İmam Mənnəvi (Feyzul-Qadir)

Hazırladı: əz-Zubeyr